## *Orta gəlirli dövlətdən yüksək gəlirli dövlətə doğru...*
## *Azərbaycanın 10 illik inkişaf ssenariləri*

Azərbaycan iqtisadiyyatı son illərdə inkişaf dinamikasına və pozitiv artımına görə fərqlənməklə bərabər, həm də iqtisadi və sosial sferanın ümumi mənzərəsində yeni modernizasiya elementləri ilə diqqəti cəlb edir. Respublikamız keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olub və onun müasir inkişaf platforması formalaşıb. Bu tendensiya iqtisadiyyatın bütün strukturlarında yeniləşmənin təzahürlərinin meydana çıxmasına səbəb olub, ölkəmizin dünyada bir sıra indikatorlar üzrə ən yüksək meyarlara yaxınlaşmasını təmin edib.

Son 10 ilin ümumi makroiqtisadi dinamikasına nəzərə salsaq, hər ay ÜDM-in və strateji valyuta ehtiyatlarının artımını görmək olar. Həm ÜDM-in, həm də milli məhsulun adambaşına düşən hissəsinin yüksəlməsi ölkəmizin «orta gəlirli ölkələr» qrupuna daxil olması üçün əlverişli zəmin yaradıb. 2000-2010-cu illər ərzində respublikamızın sıçrayışlı inkişafını xarakterizə edən mühüm makroiqtisadi göstəricilər əldə olunub. XXI əsrin birinci onilliyində Azərbaycanda iqtisadi inkişaf dörd dəfədən çox artıb. Bu illər ərzində dövlət büdcəsinin vəsaitlərində artım 15 dəfəyə qədər, investisiya xərcləri 96 dəfə, strateji valyuta ehtiyatları isə 31 dəfə artıb. Qeyd olunan dövrdə əhalinin gəlirləri beş dəfədən çox, bank aktivləri 15, əhalinin əmanətləri isə 36 dəfə çoxalıb. Bundan başqa, ölkəmizin ixrac gücü 15 dəfədən çox yüksəlib. Qeyd etdiyimiz kimi, son ildə ümumi daxili məhsulun həcminin artım tempinin müqabilində adambaşına düşən milli gəlirin həcmi də əhəmiyyətli dərəcədə çoxalıb.

Hazırda Azərbaycan dünyada «orta gəlirli ölkələr» statusunda qəbul edilir. BMT yanında İnkişaf və Artım Komissiyasının son məruzəsində qeyd olunur ki, «orta gəlirli ölkələr» qrupuna daxil olmaq qısa müddətdə mümkün olmur. 1950-ci ildən sonra belə bir inkişafa 13 ölkə nail olub. Azərbaycan bu qrupun ən yüksək şkalasında yer almaq üçün ən sabit və böyük əminlik doğuran dövlətdir. Bu iqtisadi güc, sözsüz ki, ölkənin və onun insanlarının yaxşı yaşayışının göstəricisini müəyyən edir. Ölkəmizdə 2011-ci il üzrə adambaşına düşən ÜDM-in həcmi 6 min dollara yaxın olmuşdur. Mövcud inkişaf meyilləri və sosial-iqtisadi proqnozlar Azərbaycanın yaxın beşillikdə bütün strateji hədəflərə çatmasına əsaslı zəmin yaradır. Nüfuzlu beynəlxalq maliyyə institutunun proqnozlarına görə, bölgədə zəngin neft ölkələrindən olan Azərbaycanın valyuta ehtiyatları qarşıdakı beş ildə əhəmiyyətli dərəcədə artaraq 100 milyard dollara çatacaq. Bununla yanaşı, qeyri-neft sektorunda artım ÜDM-də 40-45% yer tutmaqla maliyyə imkanlarının daha da yaxşılaşmasına təkan vermiş olacaq.

İllik iqtisadi artımın təxminən 6-7% olması, maliyyə və makroiqtisadi sabitliyin indiki tempdə saxlanması, valyuta ehtiyatlarının il ərzində 5-10 milyard manat artması və digər makro amillər Azərbaycanın «orta gəlirli ölkələr» qrupunun daha yüksək şkalasına çatmasına baza yaradır. Azərbaycan bu meyarlara 2015-ci ilə qədər nail olmaq əzmindədir.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycanda qarşıdakı 10 ildə sürətli inkişaf dinamikası iqtisadiyyatın həcminin ən azı 2 dəfə artmasına səbəb olacaq, bu isə ölkəmizin makroiqtisadi qüdrətinin və vətəndaşların milli gəlirlərinin artması üçün güclü zəmin deməkdir.

2015-ci ildən sonrakı dövrdə isə respublikamızın qarşıya qoyduğu strateji hədəf «yüksək gəlirli dövlətlər qrupu»nda yer almaqdır. Qarşıdakı illərin sosial-iqtisadi proqnozları və yeni inkişaf ssenariləri ölkəmizdə inkişaf meyillərinin ardıcıl şəkildə davam edəcəyindən xəbər verir.

Beynəlxalq Valyuta Fondunun proqnozlarına görə, 2013-2020-cü illərdə respublikamızda milli məhsul istehsalı bir neçə dəfə artacaq, valyuta ehtiyatları 200 milyard dolları ötəcək. Bu mərhələdə adambaşına düşən gəlirlər 252% artacaq. Milli gəlirin dünya ölkələri üzrə bölgüsünə görə, Azərbaycan 181 ölkə arasında 91-ci yerdən 56-cı yerə yüksələcək. Bu isə Azərbaycanın Avropa İttifaqı ölkələri, Şimali Amerika və Asiyanın inkişaf etmiş dövlətləri, həmçinin Yaxın Şərqin əsas neft hasilatçıları, xüsusilə də OPEK ölkələri ilə eyni səviyyədə olmasına imkan verəcək.

Postneft erasından sonrakı dövrdə makroiqtisadi sabitliyin qorunub saxlanılması, ölkənin enerji, ərzaq və ekoloji təhlükəsizliyinin gücləndirilməsi üçün sistemli tədbirlərin davam etdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi ilə neft sektorundan asılılığın minimuma endirilməsi, yeni aqrar sektorun inkişafında intensiv üsullara üstünlüyün verilməsi, iqtisadiyyatın klasterlər üzrə inkişafı, biznes mühitinin daha da təkmilləşdirilməsi, xüsusi iqtisadi zonaların, sənaye şəhərciklərinin,

biznes-inkubatorların yaradılması, məsləhət, informasiya təminatının, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və işgüzar əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın iqtisadi modelinin növbəti strateji hədəflərini təşkil edəcək.

Mövcud inkişaf meyilləri və sosial-iqtisadi proqnozlar Azərbaycanın yaxın onillikdə bütün bu strateji hədəflərə çatmasına əsaslı zəmin yaradır.

Elbrus CƏFƏRLİ